# CƏBRAYIL RAYONU TORPAQ FONDUNDAN İSTİFADƏNİN İŞĞALDAN ƏVVƏLKİ VƏZİYYƏTİNİN QISA TƏHLİLİ

**Maqsudlu M.A., Cəfərov A.B.**

*Bakı Dövlət Universiteti*
*maqsudlum@mail.ru*

Cəbrayıl rayonu Azərbaycan Respublikasının qədim yaşayış məntəqələrindən biridir. Kiçik Qafqazın cənub-şərqində Araz çayının sol sahilində yerləşən bu rayonun tarixi 2000-2500 ilə kimidir. SSRİ dövründə, 8 avqust 1930-cu ildə ona rayon statusu verilmiş, lakin 4 yanvar 1963-cü ildə ləğv edilərək Füzuli rayonuna birləşdirilmiş, daha sonra isə 17 iyun 1964-cü ildə yenidən rayon statusu bərpa olunmuşdur.

Cəbrayıl rayonu 1 şəhər (Cəbrayıl şəhəri), 4 qəsəbə və 92 kənddən ibarətdir. Ərazisi 1050 $km^2$, əhalisi erməni işğalından sonra yurdlarından didərgin düşmüş və ölkənin 60-a yaxın rayonunda məskunlaşmış 80 min nəfərdən ibarətdir.

Cəbrayıl rayonu Kiçik Qafqazın cənub şərqində alçaq və orta dağlıq həmçinin, Arazboyu düzənlik zonasında yerləşir. Rayonun relyefi Araz çayı sahilindən (150-200 m) Dağ Tumas zirvəsinə (1580 m) kimi cənub-şərqdən şimal-qərbə doğru yüksəlir (şəkil 1).



**Şəkil 1. Cəbrayıl rayonunun hündürlük qurşaqları**

Cəbrayıl rayonu Kiçik Qafqaz təbii-kənd təsərrüfatı vilayətinin Arazboyu və Dağlıq Qarabağ kadastr (qiymət) rayonlarının daxilində yerləşir. Ümumilikdə rayon üzrə torpaqların orta hesabi bonitet balı 76 bal təşkil edir ki, bu da bütün ölkə üzrə yüksək göstərici hesab edilir.

Keçən əsrin 80-ci illərində Cəbrayıl rayonunda kənd təsərrüfatı təyinatlı torpaqların ümumi cəmi 58 min hektar idi. Bunun 19.3 min hektarı əkin, 8.1 hektarı çoxillik əkmələr, 0.6 min hektar dincə qoyulmuş torpaqlar, 0.1 min hektarı biçənəklər, 29.9 min hektarı isə otlaqlardır. Əkin torpaqları içərisində isə 11.8 min hektarı suvarılan torpaqlardır.